Poliglot / №11 (94) / 10 oktyabr 2006-cı il



# KREDİT SİSTEMİ VƏ ONUN TƏTBİQİ

Xəbər verdiyimiz kimi, 27 sentyabr 2006-cı ildə universitetimizin rektoru, millət vəkili, professor Səməd Seyidovun sədrliyi ilə keçirilən Elmi Şuranın növbəti iclasında professor Əfqan Abdullayev kredit sistemi və onun tətbiqi ilə bağlı geniş məruzə ilə çıxış etmişdir. Oxucular üçün maraqlı olacağını nəzərə alaraq professor Əfqan Abdullayevin çıxışının mətnini dərc edirik.

## KREDİT ANLAYIŞININ TARİXİ

"Kredit" sözünün mənası ilə əlaqədar müxtəlif luğətlərə nəzər salsaq onun çox mənası ilə rastlaşarıq. Bu mənalar biznes, bank, mühasibatlıq və təhsil sahələrini əhatə edir. Sözün ilkin mənası latın dilindən "creditum", yəni "borc", "bir kəsə etibar olunan əşya" deməkdir. Ticarət sahəsində ilk dəfə "creditor" mənasında 1447-ci ildən işlədilir. Akademik mənada, yəni müəyyən fənnin müvəffəqiyyətlə tamamlanmasına görə qazanılan "bal, vahid" kimi 1904-cü ildən, "Kredit kart" mənasında 1952-ci ildən işlənir. "Credit card" birləşməsi əslində XIX əsrin sonlarında "traveller's check" mənasını bildirib. Bizim məqsədimiz ancaq "akademik kredit" olduğundan başqa mənalara diqqət yetirməyəcəyik.

## DÜNYA AKADEMİK KREDİT SİSTEMLƏRİ

Bu gün dünyada, əsasən, 2 akademik kredit sistemi daha geniş yayılmışdır:
1. USCS - United States Credit System (ABŞ Kredit sistemi)
2. ECTS - European Credit Transfer System (Avropa Kredit transfer sistemi)

Birinci sistem XX əsrin əvvəllərindən tətbiq olunur və semestrdə 15-18 kredit qazanmaq imkanı verir. Əgər ABŞ-da bir qrup həftədə 3 saat mühazirə və ya müzakirə keçirsə, bu, o deməkdir ki, BA-in (bakalavr) 1 kredit saatı 1 saatlıq mühazirə və 2 saatlıq ev işinə bərabərdir. MA-in (magistr) 1 kredit saatı, 1 saatlıq mühazirə və 5 saatlıq ev işinə bərabərdir. BA üçün semestrdə orta tədris yükü 15 kreditə (vahidə) bərabərdir ki, bu da 45 saat dərsdə iştirak və oxumaq deməkdir. MA-da isə bu müvafiq olaraq 9 kredit (vahid) və 54 saat dərsdə iştirak və oxumaq deməkdir.

İkinci sistem isə XX əsrin 80-ci illərindən tətbiq olunmağa başlanıb və semestrdə 30-33 kredit qazanmaq imkanı verir.

Dünyanın müxtəlif ölkələrində kredit sisteminin tətbiqi də müxtəlifdir. Burada universitetin "semestr", yoxsa "kvartal" sistemləri üzrə işləmələri də mühüm əhəmiyyət kəsb edir. Əksər universitetlərdə tədris ili "Payız" (16 həftə) və "Yaz"

(17 həftə) semestrləri olmaqla 2 hissəyə bölünür. 8-10 həftəlik "Yay sessiyası" deyilən bir tədris müddəti də tətbiq olunur.

## AKADEMİK KREDİT NƏDİR?

Bu gün universitetimizdə hamı bir-birini görəndə ən çox soruşulan suallar arasında 1-ci yerdə "Kredit nədir?" sualını verir. (Bəzən "Kredit saat"da deyirlər). Bunun çox sadə bir cavabı var: "Kredit tələbənin semestr boyu həftə ərzində bir dərsdə keçirdiyi akademik saatdır". Bu, o deməkdir ki, əgər tələbə bir həftədə hər hansı bir fənnə 3 akademik saat vaxt sərf edirsə, demək o fənn 3 kreditlik fəndir və tələbə semestrin nəticəsinə görə, həmin fəndən müvəffəq qiymət alarsa, onda o, 3 kredit qazanmış olur.
Demək, "Kredit sistemi" tələbənin təhsil müddətində fərdi planı, "kredit" isə tələbənin tədrisdə kəmiyyət göstəricisidir.
Tələbə krediti mühazirə-seminar məşğələlərdə iştirakı ilə, müstəqil - yəni auditoriyadan kənar tapşırıqlar yerinə yetirməklə qazana bilər.

## KREDİT SİSTEMİNƏ KEÇİD BİZƏ NƏ VERƏCƏK?

Azərbaycanda təhsil alan hər hansı bir tələbə təhsil haqqında sənədlərini kredit sistemi tətbiq olunan hər hansı bir ölkənin universitetinə təqdim edəndə heç bir çətinlik çəkməyəcək. Çünki kredit sistemi vahid tədris məkanı deməkdir.
2005-ci ildə Boloniya prosesinə qoşulan Respublikamızda da kredit sistemi bu ildən Təhsil Nazirliyinin tövsiyəsi ilə bir çox universitetlərin bəzi fakültələrində, bizim Universitetdə isə bütün fakültələrdə tətbiq olunmağa başlanıb. Nazirliyin işləyib hazırladığı kredit sisteminin mahiyyəti qısaca olaraq aşağıdakılardan ibarətdir.

## BAKALAVR DƏRƏCƏSİ ALMAQ ÜÇÜN NƏLƏR TƏLƏB OLUNUR?

Tələbə bakalavr dərəcəsi almaq üçün 4 il oxumalıdır. Hər tədris ili hər biri 15 həftə olmaqla 2 semestrdən ibarətdir. 4 illik tədris planı ümumilikdə 8 semestrə bölünür. Aşağıda birinci tədris ili üçün hər bir semestrin, imtahan sessiyalarının və tətillərin keçirilmə vaxtları göstərilir:
I semestr: Başlanır: 15.09.2006 (15 həftə) Qurtarır: 29.12.2006
Qış imtahan sessiyası: 02.01.2007. - 26.01.2007 (4 həftə)
Qış tətili: 2 həftə
II semestr: Başlanır: 09.02.2007 (15 həftə) Qurtarır: 25.05.2007
Yay imtahan sessiyası: 26.05.2007-20.06.2007 (4 həftə)
Yay tətili: 21.06.2007- 15.09.2007 (12 həftə)

## KREDİT SİSTEMİ
## TƏLƏBƏLƏRƏ NƏ VERƏCƏK?

1) Bakalavr pilləsini başa vuraraq alacağı əsas ali təhsil sənədləri (Diplom və diploma əlavə) beynəlxalq standartlara cavab verəcək;
2) Hər bir tələbənin QİYMƏT CƏDVƏLİNDƏ FƏNLƏRİN KƏMİYYƏT GÖSTƏRİCİSİ-KREDİTİ VƏ GPA (ORTA QİYMƏT GÖSTƏRİCİSİ) yazılacaq.
3) Tələbə məcburi fənlərdən başqa bəzi fənləri və müəllimləri seçməkdə müstəqil olacaqdır. Tədrisin keyfiyyəti, müəllimlərin fəaliyyəti haqqında tələbə obyektiv münasibət bildirməkdə azad olacaqdır;
4) Tələbə tədris prosesində lazımi çap materialları və həmin materialların elektron formalarını alacaqdır.

## KREDİT QAZANMAQ NƏ DEMƏKDİR?

Hər bir tələbə bir semestr ərzində 30 kreditə qədər fənləri götürə bilər. Universitetimizdə 1 kredit həftəlik dərs yükünün 1 saatına bərabərdir. Məsələn: Əgər tələbə "English Grammar" (İngilis dilinin qrammatikası) fənnini götürmüşsə və bu fənn həftədə 6 akademik saatdırsa (yəni həftədə 3 dəfə tədris olunursa), deməli, tələbə "Qrammatika" fənnindən semestrin sonunda müvəffəq qiymət alsa (yəni 100 ballıq sistemlə 51-100 bal arası), bu fəndən 6 kredit qazanmış olacaq.

## KREDİT NƏ ZAMAN QAZANILMIR

Tələbə hər hansı fənndən 0-50 bal arası qiymət alsa, həmin fənn üzrə krediti qazanmamış hesab olunur. Bu halda tələbəyə həmin fəndən lazımi kredit əldə etmək üçün yenidən imtahan verməyə, başqa sözlə, kəsiri ləğv etməyə icazə verilmir. Tələbə həmin fənni yenidən 1 semestr oxuyub imtahan verməlidir. Əgər tələbənin kredit qazanmadığı fənn ardıcıl öyrənilən fənlər qrupuna aiddirsə, onda həmin fənnin kreditini qazanmamış sayılır və onunla bağlı digər fənn üzrə dərslərə buraxılmır. Bu isə o deməkdir ki, artıq tələbənin Bakalavr pilləsini 4 il ərzində qurtarmaq şansı azalır.

## ƏLAVƏ KREDİT GÖTÜRMƏK OLARMI?

3-cü və 4-cü semestrlərdən başlayaraq tələbə əlavə olaraq 8 kreditdən çox olmamaq şərti ilə 1 və ya 2 fənn seçə bilər. Amma bunun üçün onun əvvəlki semestrlərdən imtahan ballarının orta qiyməti 71-dən az olmamalıdır.

## BAKALAVR DƏRƏCƏSİ ALMAQ ÜÇÜN NEÇƏ KREDİT TOPLAMAQ LAZIMDIR

Tələbə bakalavr dərəcəsi almaq üçün oxuduğu müddətdə 240 kredit toplamalıdır. Əks halda ona diplom verilmir.

## TƏDRİS PROQRAMINDA TƏLƏBƏYƏ TƏKLİF OLUNAN FƏNLƏR 3 QRUPA BÖLÜNÜR:

1) məcburi və ardıcıl öyrənilən fənlər (məs: qrammatika, fonetika, nitq praktikası və s).
2) məcburi, lakin ardıcıllığı vacib olmayan fənlər ( məs. Azərbaycan tarixi, İnformatika və kompüter texnologiyası və s.).
3) tələbələrin öz seçimləri əsasında öyrədilən fənlər (siyasi elmlər, humanitar elmlər, ixtisas fənləri, ümumpeşə haqqında fənlər və s.).

## DİQQƏT!

1) Əgər tələbə bakalavr təhsili ərzində (4 il, 8 semestr) müəyyən olunmuş (240) krediti qazana bilməmişdirsə, onda ona növbəti 3 il müddətində borclu qaldığı kreditləri toplamağa imkan verilir. Əgər həmin müddətdə də lazımi krediti yığa bilməsə, onda həmin tələbə tələbə üçün müəyyən olunmuş bütün imtiyazları itirir.
2) Əgər tələbə ödənişsiz əsaslarla təhsil alırsa və 5 il müddətində müəyyən olunmuş krediti yığa bilməmişdirsə, onda həmin tələbə, təhsilini yalnız ödənişli əsaslarla davam etdirə bilər.

Əfqan ABDULLAYEV,
1№-li ingilis dili fakültəsinin dekanı,
filologiya elmləri doktoru, professor.

## KREDİT SİSTEMİ İLƏ BAĞLI PROFESSOR ƏFQAN ABDULLAYEVİN TƏKLİFLƏRİ

a) Tədris olunan fənlər semestrlərdən asılı olaraq differensiyallaşmalıdır, xüsusilə ardıcıl tədris olunan fənlər (Nitq praktikası, Qrammatika, Fonetika fənləri);
b) Semestrin nəticələrinə görə, kredit qazana bilməyən tələbələrə yaxşı olar ki, növbəti semestrdə kəsildikləri fəndən dərslər təşkil olunsun və bu fənlər saathesabı tədris yükü kimi tədris olunsun. Bu mümkün olmasa 8-10 həftəlik "İntensiv yay sessiyası" təşkil edilsin;
c) Gələcəkdə bəzi anlaşılmazlıqları aradan qaldırmaq üçün fakültələr üzrə hər bir kreditin dəyəri müəyyənləşdirilməlidir. Məsələn, əgər İngilis dili fakültəsi üzrə 1 kreditin dəyərini hesablasaq, onda 58,333 manat (11,66 AZN) alınar.

© ADU 2006.